## “Ədəbi əlaqələr” toplusu – 2017

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun “Ədəbi əlaqələr” toplusu* çapdan çıxıb. Dərgi AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəylinin “Azərbaycan ədəbiyyatşünaslığının Məhtimqulu Fəraqi çalışmaları” adlı geniş məqaləsi ilə açılır. Görkəmli alim məqalədə türkmən şairi M.Fəraqinin Azərbaycan ədəbiyyatşünaslığı və türkologiya elmindəki tədqiqi məsələlərindən əhatəli bəhs etmişdir. Topluda ədəbi əlaqələrin nəzəri məsələləri, Azərbaycan – Avropa, Azərbaycan – Türk dünyası, Azərbaycan – Slavyan, Azərbaycan – Asiya, Azərbaycan – Şərq xalqları ədəbi əlaqələri bölmələri əhatə olunub.

Ədəbi əlaqələrin nəzəri məsələlərinə 9 məqalə həsr edilib. Professor Nizami Tağısoyun məqaləsi Malkar – Azərbaycan ədəbi əlaqələri, professor İslam Sadığın məqaləsi Y.V.Çəmənzəminlinin “Qızlar bulağı” romanındakı şumer – tanrı obrazları, dos.Aslan Salmansoyun məqaləsi S.Vurğunun “Zəncinin arzuları” poemasındakı mətn və mətnaltı qatlar, dos. Könül Hacıyevanın məqaləsi Sədi Şirazi poeziyasındakı bəşəri dəyərlər, dos. Səkinə Qaybalıyevanın məqaləsi İraq-türkmən ədəbiyyatının tarixi inkişaf mərhələləri, Arzu Məmmədxanlının məqaləsi “İsi Məlikzadənin “Quyu povesti ilə Orxan Pamukun “Qırmızı saçlı qadın” romanı arasında bağlar, Nərgiz Kərimovanın məqaləsi Nizami Gəncəvinin yaradıcılığındakı Çin mövzusu, Səbriyyə İsmizadənin məqaləsi C.M.Kutzeenin “Rüsvayçılıq” romanında postkolonial feminizmin postaperteid mərhələsindəki qadın azadlığı, İlahə Tağızadənin məqaləsi Elis Manronun hekayələrindəki bədii psixologizmin ifadə vasitələrini özündə ehtiva edir.

“Ədəbi əlaqələr” toplusunda Azərbaycan – Avropa ədəbi əlaqələri üzrə professor Gülər Abdullayevanın “Polyak mühacir ədəbiyyatı”, dos. Samir Səttarovun “Henrik Senkevisin həyat və yaradıcılığı”, Leyla Həsənzadənin “Henrix Heyne poeziyasının tərcümə problemləri” məqalələri özünə yer alıb.

Azərbaycan – Türk dünyası ədəbi əlaqələrinə aid 8 məqalə verilib. AMEA-nın müxbir üzvü Nüşabə Araslının “Türkiyədə Nizami irsinin inspirasiyaları”, professor Almaz Ülvinin dünya 60-cılarının görkəmli özbək nümayəndəsi Camal Kamal, Dos. Dr. Muhsin Kadıoğlunun “Fateh Sultan Mehmetin portretində türk, islam və Avropa mədəniyyəti xüsusiyyətləri”, dos. Bəsirə Əzizəliyevanın “Muhsin Kadıoğlunun “Polşada türk izləri” əsərində tarixi və mədəni əlaqələrin öyrənilməsi”, dos. Eşqanə Babayevanın “Nəcib Fazil Qısakürəyin “Aynadakı yalan” romanında sufi-fəlsəfi

---

* Bakı, “Elm və Təhsil”, XI, 2017. Bu barədə bax: literature.az

ideyalar", Töhfə Talıbovanın "Səməd Vurğun və Musa Cəlil", Vəfa Babayevanın "Azərbaycan-Türkmən ədəbi-mədəni əlaqələrində Məmmədəli Manafzadə Sabitin rolu", Rumiyə Sərhədqızının "Türkün böyük şairi – Bəxtiyar Vahabzadə" mövzularına həsr olunub.

Azərbaycan – Slavyan ədəbi əlaqələrinə dair 9 məqalə verilib. Professor Aida Feyzullayevanın "Tolstoy və Dostoyevskinin müqayisəli öyrənilməsi, professor Lyudmila Səmədovanın "Nikolay Stepanoviç Qumilyovun "Allahın uşağı" pyesindəki islam motivləri və ənənələri", dos. Abuzər Bağırovun "Moskvada yaşayan azərbaycanlı üç nasirin portretlərinə cizgilər", dos. Mahrux Tağıyevanın "Fyodor Dostoyevskinin "Şeytanlar" romanı Azərbaycan dilində", dos. Gülnarə Həsənovanın "Lev Nikoloyeviç Tolstoy və Şərq", Sevda Məmmədovanın "Müasir dövrdə Azərbaycan-rus poetik əlaqələri və tərcümə problemləri", Leyla Ramazanovanın "Vilyam Şekspir yaradıcılığı Azərbaycan ədəbiyyatşünaslığında", İradə Yusifovanın "Mixail Aleksandroviç Şoloxov yaradıcılığında humanizm" məqalələri Azərbaycan – Slavyan xalqları ədəbiyyatının aktual problemləri haqqındadır.

Dərgidə Asiya xalqları ilə ədəbi əlaqələr üzrə 1 məqalə, Şərq xalqları ilə ədəbi əlaqələrə dair 4 məqalə özünə yer alıb. Gülnar Yunusova məqaləsində "Azərbaycan-Yapon ədəbi əlaqələrində bədii tərcümənin rolu"na geniş yer verib. Prof. Vüqar Əhməd məqaləsində fars poeziyasında Şəhriyarın yeri və mövqeyi, dos. Ülkər Zakirqızının (Məmmədova) məqaləsində Eynəlqüzat Miyanəçi əsərlərində adı çəkilmiş ərəb şairləri, dos. Lütviyyə Əsgərzadənin məqaləsində "Şeyx Sənan" mövzusunun yayılma arealı: Yaxın və Orta Şərq, dosent Əntiqə Qəhrəmanovanın məqaləsində Əbdürrəhman Caminin "Yusif və Züleyxa" əsəri haqqında məlumat verilib.

Beləliklə, "Ədəbi əlaqələr" toplusunun XI sayında ədəbi əlaqələrin nəzəri məsələləri, Azərbaycan – Avropa, Azərbaycan – Türk dünyası, Azərbaycan – Slavyan, Azərbaycan – Asiya, Azərbaycan – Şərq xalqları ədəbiyyatına dair 35 məqalə verilib ki, bütün bunlar Şərq və Qərb ölkələri üzrə tarixi və çağdaş ədəbi əlaqələrin öyrənilməsi baxımından əhəmiyyətli olub elmi-nəzəri və ədəbi-estetik axtrışların gələcək tədqiqatları üçün zəmin yaradır.

**Əlizadə Əsgərli**
**AMEA Nizami Gəncəvi adına**
**Ədəbiyyat İnstitutunun direktor müavini,**
**filologiya elmləri doktoru, professor**